

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 104 (21.256)

27 may 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Bakıda daha bir müasir istirahət və əyləncə mərkəzi – "Dalğa Beach-Aqua Park" istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 26-da "Dalğa Beach-Aqua Park" ailəvi istirahət mərkəzinin açılışında iştirak ediblər.

Paytaxtın Xəzər rayonunun Mərdəkan qəsəbəsində yeni inşa edilmiş "Dalğa Beach-Aqua Park" xidmətin müxtəlifliyi və quruluşunun cazibədarlığı ilə fərqlənir.

Ailəvi istirahət parkında yaradılan şəraitlə bağlı dövlətimizin başçısına məlumat verildi. Qeyd edildi ki, "Dalğa Beach-Aqua Park"ın ümumi sahəsi 68 min kvadratmetrdir. Ərazisinə görə bu, Azərbaycanda ən böyük Aqua Parkdır. Xəzər dənizinin sahilində yerləşən istirahət mərkəzi nəfis tərtibatda, orijinal üslubda inşa olunub. İstirahət kompleksində ümumi sahəsi 12 min kvadratmetr olan 7 hovuz yaradılıb.

Dövlətimizin başçısı və xanımı dənizin içində inşa edilmiş "Mayak" restoranında da oldular. Bu iaşə obyekti xidmətin orijinal təşkili ilə yanaşı, Bakının köhnə mayaklarının arxitektura üslubunda tikilməsi ilə də diqqəti cəlb edir. Buradan Xəzərə açılan mənzərə istirahətə gələnlərdə xoş ovqat yaradacaq.

## Dövlət himnimiz Azərbaycançılıq ideologiyasının rəmzidir

***Azərbaycan Respublikasının Dövlət Himninin sözlərinin ilkin variantı 1919-cu ildə Azərbaycan Xalq Mətbəəsində nəşr olunmuş "Milli nəğmələr" kitabında "Vətən marşı" adı ilə dərc edilmişdir. Həmin marş "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" 1992-ci il 27 may tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir. Müvafiq Konstitusiya qanunları və "Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamə" ilə dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzi, dövlət himninə dərin ehtiram bəsləmək isə onun hər bir vətəndaşının vətənpərvərlik borcu kimi təsbit olunmuşdur.***

"Himn" sözü beynəlxalq dövlətçilik terminologiyasına görə "dövlət tərəfindən qəbul edilən milli müstəqillik və milli birlik rəmzi olan təntənəli musiqi əsəri, nəğmə, marş" mənasındadır. Həmin termin Azərbaycan dilində də eyni məna və funksiyanı ifadə edir. Azərbaycan Respublikasının Dövlət Himni dövlətçiliyimizin əsas atributu olub, milli birliyimizin – Azərbaycançılığın müqəddəs rəmzidir. Dövlət himni müstəqilliyin musiqi və sözlə ifadə edilən müqəddəs simvolu, rəmzi, atributu olaraq milli və dövlət bayramlarında, tarixi günlərdə, rəsmi mərasimlərdə, beynəlxalq tədbirlərdə, təhsil müəssisələrində və mövcud qanunvericiliklə müəyyən edilən digər hallarda həmişə ayaqüstə, yüksək vətənpərvərlik hissi ilə, qürurla oxunur və dinlənilir. Himn həmişə dövlət bayrağı ilə bərabər tutulur. Himni obrazlı şəkildə hər bir dövlətin musiqi bayrağı da adlandırırlar. Dövlət himni çalınarkən mütləq dövlət bayrağı da qaldırılır. Digər tərəfdən, təsadüfi deyildir ki, bir çox dövlətlərdə əsas dövlətçilik atributları məhz təkcə bayraq və himndən ibarətdir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın dövlət himni haqqında demişdir: ***"1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz, qanunla istifadə etdiyimiz dövlət himnidir və bir də Azərbaycanın dövlət bayrağıdır. O vaxt vətənpərvər insanlar bu sahədə gözəl iş görmüşlər. Himnimizin sözləri də bu gün bizim üçün doğmadır və həqiqətən Azərbaycanın müstəqilliyini, müstəqil dövlət olmağını nümayiş etdirir".***

Azərbaycan Respublikasının Dövlət Himni istər ideya məzmun, istərsə də musiqisinin zənginliyi baxımından milli ideologiyamızın aparıcı amili olan Azərbaycançılığı, Vətənçiliyi, Vətən sevgisini və vətənpərvərlik hisslərini, dövlət müstəqilliyini, Vətənə, millətə, dövlətə, dövlətçiliyə sədaqət ideyasını parlaq şəkildə əks etdirir.

Azərbaycan marşlarının melodiyası sadə, yaddaqalan olmaqla yanaşı, məzmun baxımından da coşqun və mübariz ruhludur. Dövlət himnimizdə də əsərin şeiriyyəti musiqi ritminə tabe edildiyindən, onun musiqisi səslənən kimi himnin mətni sanki bulaq suyu kimi çağlayır. Onun əzəməti, coşqunluğu, mübariz ruhu da məhz musiqi ilə qəlblərə yol tapır. İnsanların qanını Vətən sevgisi, millət duyğusu ilə coşdurur, adamları doğma Azərbaycanın birliyi, bütövlüyü, bölünməzliyi uğrunda mübarizəyə səsləyir. Milli himnimiz səslənəndə hər birimizdə milli ruh yüksəlir, vətənpərvərlik, milli iftixar və qürur hissi coşub-daşır.

Azərbaycan Respublikası Dövlət Himninin mətni dərsliklərin birinci səhifəsində dərc olunur. Ümumtəhsil məktəblərində, texniki peşə, orta ixtisas məktəblərində, ali məktəblərdə və başqa tədris müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının Dövlət Himninin öyrənilməsinə və ifasına həsr edilir. Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsində, ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında Azərbaycançılığın və dövlətçiliyimizin əsas atributlarına, o cümlədən dövlət himnimizə hörmət etmək hər bir azərbaycanlının müqəddəs borcu hesab olunduğu dəfələrlə vurğulanıb. Hamımız bu borcu şərəflə yerinə yetirməliyik.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev himnimizə dərin ehtiram bəsləyirdi. Ulu öndərin 1998-ci il martın 13-də imzaladığı "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncamda deyilir: ***"Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycan bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir".***

Himnimizin sözləri də, musiqisi də dəyərlidir. Çünki dövlət himninin sözlərində Azərbaycan xalqının və Vətən tarixinin səhifələri canlandırılır. Gənclərin tərbiyəsində mühüm rola malik olan himnimizin sözlərində həm qəhrəmanlıq tərənnüm olunur, həm də Vətənin qorunması uğrunda gənclərin hər zaman mücadiləyə, yeri gələndə şəhid olmağa, qurban getməyə hazır olmaq əzmi göstərilir. Musiqisi də, sözsüz ki, əzəmətlidir. Bu gün uşaqdan tutmuş böyüyə qədər hər kəs himnimizi əzbər bilir, sevə-sevə oxuyur. Hər bir azərbaycanlı dövlət himnimizi ali mənəvi irs kimi dəyərləndirir, dövlət atributu kimi ona da dərin ehtiram bəsləyir.

**"Şərq qapısı"**

***Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin "Azərbaycan Xalq Cümhuriyyəti tariximizin parlaq səhifəsidir" mövzusunda məruzəsi dinlənilib.***

## Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında Respublika Gününə həsr olunmuş tədbir keçirilib



Əmir Babayev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, az vaxt ərzində süquta uğramasının səbəblərindən, müstəqilliyimizin bərpası və qorunub saxlanılması istiqamətində görülən işlərdən bəhs edərək bildirib ki, xalqımız həmişə qəlbində azad və müstəqil dövlət vətəndaşı olmaq ümidini yaşadıb və bu yolda çətin mübarizələrdən keçib.

Qeyd olunub ki, 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti xarici və daxili siyasət amilləri ilə izah olunan mürəkkəb bir şəraitdə fəaliyyət göstərib, cəmi 23 ay yaşaya bilib.

Tədbirdə ötən əsrin sonlarında müstəqilliyin yenidən bərpa olunması istiqamətində respublikamızda aparılan azadlıq mücadiləsi yolunda baş vermiş faciəli hadisələr, müstəqilliyimizi yenidən bərpa etdiyimiz ilk vaxtlarda rastlaşdığımız maneələr, ciddi təhlükələr xatırladılıb, ümummilli lider, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin böyük çətinliklər bahasına müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, sarsılmaz və əbədi olması istiqamətində gördüyü misilsiz xidmətlərdən ətraflı söhbət açılıb. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin dövlətimizin tərəqqisi naminə gördüyü işlərin əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin əbədi və dönməz etdiyi müstəqilliyimizin bəhrələri ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında getdikcə artmaqdadır. Bu bəhrələr hər bir naxçıvanlının həyat tərzində özünü göstərir, insanların maddi-rifah halı yüksəlir, qədim diyarımız özünün yeni inkişaf dövrünü yaşayır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Elman MƏMMƏDOV**

## Naxçıvan Dövlət Universiteti beynəlxalq reytinq tədqiqatlarında iştirak etmək hüququ qazanıb



Naxçıvan Dövlət Universitetində "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsinin yekunu müzakirə olunub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, 2014-cü ildə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas hədəflərindən biri olan təhsil müəssisələrinin reytinq sisteminin yaradılması məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yüzdən artıq hökumət və qeyri-hökumət təşkilatlarının iştirakı ilə "İctimai təşəbbüslərə dəstək" müsabiqəsi təşkil etmişdi. Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatı (AKTAM) "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi ilə müsabiqənin qalibi olaraq layihəni həyata keçirmək üçün dövlət sifarişi almışdı. Layihəyə əsasən, ilk dəfə Azərbaycan Respublikasının 30 ali məktəbinin çoxkriteriyalı, beynəlxalq standartlara uyğun reytinq cədvəli hazırlanmış, ali məktəblərin fəaliyyəti müqayisəli qiymətləndirilərək ölkə ictimaiyyətinə çatdırılmışdır. Tədqiqat nəticəsində Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yeri tutmuş, Naxçıvan Müəllimlər İnstitutu isə ilk onluqda yer almışdır. Rektor vurğulayıb ki, bu uğur Azərbaycanda, o cümlədən Naxçıvanda elm və təhsilin inkişafına, ali təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, kadr hazırlığına göstərilən hərtərəfli dövlət qayğısı nəticəsində qazanılıb.

"Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsinin rəhbəri, AKTAM Təşkilatının sədri Natiq Əhmədov çıxış edərək bildirib ki, bu layihədə beynəlxalq səviyyədə qəbul olunmuş metodikaya əsasən, respublikanın ali məktəblərinin tədrisin keyfiyyətini qiymətləndirmək məqsədilə çoxistiqamətli tədqiqatlar aparılıb, ali məktəblərin milli reytinq cədvəli beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanıb. Reytinq tədqiqatları 20 dövlət, 12 qeyri-dövlət ali təhsil müəssisələri və Azərbaycan Müəllimlər İnstitutunun 11 filialı arasında aparılıb, hazırlanan forma qiymətləndirilmək üçün 17 nazirlik və komitəyə, özəl müəssisələrə göndərilib. Ali məktəblərin reytinq tədqiqatları keyfiyyət göstəriciləri bir-birindən asılı olmayan 3 müstəqil kateqoriyaya əsasən aparılıb. Naxçıvan Dövlət Universiteti bu kateqoriyalar üzrə 799 balla birincilik əldə edib. Naxçıvan Dövlət Universiteti və ilk beşliyə daxil olan digər ali məktəblər beynəlxalq regional reytinq tədqiqatlarında iştirak etmək hüququ qazanıblar. Layihəyə əsasən, iki ildən bir aparılacaq tədqiqatlar ölkənin ali təhsil müəssisələri arasında sağlam rəqabətin formalaşmasına, tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına, ali təhsil sistemində mövcud olan nöqsanların üzə çıxarılaraq aradan qaldırılmasına xidmət edəcək.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli çıxışında regionda fəaliyyət göstərən ali məktəbin reytinqdə birinci olmasını, rəhbərlik etdiyi ali təhsil ocağının isə ilk onluqda yer almasını mühüm hadisə kimi qiymətləndirib.

**Mehriban SULTAN**

# İntibahın şəfəqlərilə böyüyürük biz

## *Bu mövzuda keçirilən müsabiqələrin qalibləri mükafatlandırılıb*





*Mayın 26-da Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar “İntibahın şəfəqlərilə böyüyürük biz” mövzusunda məktəbəqədər təhsil müəssisələrinin uşaqları və sağlamlıq imkanları məhdud uşaqlar arasında keçirilən rəsm, əl işləri və musiqi müsabiqələrinin qaliblərinin mükafatlandırma mərasimi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət və Turizm nazirlikləri, Naxçıvan Şəhər İcra Hakimiyyəti, eləcə də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən təşkil olunan müsabiqədə məktəbəqədər müəssisələrin uşaqları, o cümlədən sağlamlıq imkanları məhdud olan uşaqlar iştirak ediblər.

Əvvəlcə sağlamlıq imkanları məhdud uşaqların əl işlərindən ibarət sərgiyə baxış olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək Naxçıvan Muxtar Respublikasında uşaqların hüquqlarının qorunması, təhsili, sağlamlığı, sosial müdafiəsi, istirahəti, yaradıcılıq potensialının aşkarlanması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” təsdiq edilib. Dövlət proqramından irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə müəyyənləşdirilən tədbirlər, həmçinin bu kateqoriyadan olan uşaqların təhsilə cəlbi və onların hərtərəfli inkişafı üçün müxtəlif müsabiqələrin keçirilməsi bu uşaqları erkən yaşlarında cəmiyyətə qoşur.

Qeyd olunub ki, müsabiqənin “İntibahın şəfəqlərilə böyüyürük biz” mövzusunda keçirilməsinin də xüsusi əhəmiyyəti var. Çünki son 20 ildə muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, bu inkişafın nəticəsində yaradılan hərtərəfli şərait bütün uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların gələcək taleyini müəyyənləşdirir, onların təhsilli, bilikli və müəyyən peşə sahibi kimi formalaşdırır. Ramilə Seyidova vurğulayıb ki, müsabiqəyə təqdim olunan rəsm əsərlərində, əl işlərində, eləcə də musiqi nömrələrində muxtar respublikanın intibah və tərəqqisi öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva da qalibləri təbrik edib, onlara uğurlar arzulayıb. Bildirib ki, müsabiqənin önəmli cəhətlərindən biri də kiçikyaşlı uşaqların Vətənə məhəbbət, böyüyə hörmət, milli dəyərlərə bağlılıq ruhunda tərbiyə olunması və formalaşdırılmasıdır.

Sonra Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər tərbiyə müəssisələrinin nümunəvi çıxışları yenidən tamaşaçılara təqdim olunub.

Sonda qaliblərin mükafatlandırılma mərasimi olub. Rəsm, əl işləri, musiqi müsabiqəsinin, eləcə də uşaq bağçalarının qalibləri təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar. Tədbirdə iştirak edən digər uşaqlara da hədiyyələr verilib.

# Şərur rayonunda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilib

*Mayın 26-da Şərur Rayon İcra Hakimiyyətində rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirilmişdir.*



Tədbiri Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açaraq son illərdə rayonda sığorta sahəsində görülmüş işlərdən danışmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə qurulması işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilmiş müşavirənin xüsusi əhəmiyyəti olduğunu vurğulamışdır. Agentliyin Baş direktoru baş vermiş müxtəlif sığorta hadisələrindən konkret misallar gətirməklə sığortanın əhəmiyyətindən bəhs etmiş, vaxtında sığortalanmağın üstün cəhətlərini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, ötən müddətdə Şərur rayonunda da bu istiqamətdə xeyli işlər görülmüş və nəticədə, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayı artmışdır.

Muxtar respublikamızda tətbiq olunan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən də danışan Baş direktor bildirmişdir ki, Şərurda sığorta sahəsində görülmüş bu işlərlə bərabər, icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Qarşıya qoyulan vəzifə ondan ibarətdir ki, Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir sığorta obyekti sığorta olunmalıdır.

Tədbirə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov yekun vurmuşdur.

# Naxçıvana turist axını güclənib

*Yay fəslinə doğru yaxınlaşdıqca turizm və istirahət məqsədli səyahətlər də artmaqdadır.*

Artıq neçə müddətdir ki, Naxçıvanın görməli yerləri, gözəl təbiət guşələri, istirahət və əyləncə mərkəzləri çox sayda turisti özünə cəlb edir. Bəs görəsən bu il vəziyyət necədir? Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, cari ilin yanvar-aprel aylarında muxtar respublikaya 118 min 625 nəfər turist gəlib ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 4780 nəfər çoxdur. Bu rəqəmlər onu deməyə əsas verir ki, regiona gələn turist səfərlərinin son aylardakı dinamikasında xeyli artım vardır. Belə ki, cari ilin yanvar-mart ayları ərzində Naxçıvana gələn turist sayı 2014-cü ilin müvafiq dövründəki göstəricidən 2,5 faiz çox olduğu halda, bu rəqəm yanvar-aprel ayları üzrə 4,2 faiz artımla müşahidə olunub. Qeyd edək ki, muxtar respublikamıza səfər edən turistlər arasında ölkəmizin digər yerlərindən səyahət edən yerli turistlərlə yanaşı, xarici ölkələrdən gələn turistlərin də sayı artıb. Naxçıvanda servis sektorunda təklif olunan xidmətlərin çeşidinin və keyfiyyətinin artması bu sahəyə öz təsirini göstərən amillərdəndir.

**Əli CABBAROV**

# Naxçıvan şəhərində quruculuq işləri sürətlə davam etdirilir





Muxtar respublikamızda əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər uğurla davam etdirilir. Yeni yaşayış binaları tikilir, mövcud binalar əsaslı şəkildə yenidən qurulur. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan şəhərində onlarla yaşayış binası əsaslı təmir olunub, mənzillərin sahəsi genişləndirilib, binaların əksəriyyətinin təməli möhkəmləndirilib, əlavə mərtəbələr artırılıb, müasir kommunikasiya xətləri çəkilib. Yeni tikilən yaşayış binaları həm memarlıq, həm də rahatlıq baxımından diqqətçəkicidir. Şəhərimizin gözəlliyinə yeni rəng qatacaq belə yaşayış binalarından biri də Heydər Əliyev prospektində tikilir.

Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən tikilən yaşayış binasının təməli cari ilin may ayının əvvəlində qoyulub. Zirzəmi ilə birlikdə səkkiz mərtəbədən ibarət olacaq binanın zirzəmi hissəsində 210 kvadratmetrlik anbar, foye yerləşəcək. Birinci mərtəbəsində mağazaların fəaliyyət göstərəcəyi binanın digər mərtəbələrində hər mərtəbəyə bir mənzil olmaqla, cəmi 6 mənzil olacaq. 220 kvadratmetrlik mənzillərin hər birində 30 kvadratmetrlik üç yataq otağı, bir salon, foye və mətbəx yerləşəcək. Müasir üslubda inşa edilən binada hər mənzilin üç eyvanı olacaq.

Hazırda binanın birinci mərtəbəsində beton-qəlib işləri həyata keçirilir.

Naxçıvan şəhərinin İslam Səfərli küçəsində inşa olunan 400 yerlik avtomobil dayanacağı isə şəhərdə yüksək səviyyəli parkinq xidmətinin göstərilməsinə öz töhfəsini verəcək. Zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olan avtomobil dayanacağı üç korpusludur. Hazırda birinci korpusun son mərtəbəsində hörgü və suvaq işləri aparılır. İkinci korpusun daxilində suvaq işləri və fasad hissənin şüşə ilə üzlənməsi başa çatdırılıb, üçüncü korpusda isə beton-qəlib işləri həyata keçirilir. Dayanacaq binasının birinci korpusunda lift quraşdırılıb, ikinci korpusda isə lift quraşdırılması davam etdirilir.

“Dizayn İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi tərəfindən inşası davam etdirilən obyektin tikintisi başa çatdırıldıqdan sonra ümumi sahəsi 5570 kvadratmetr olan avtomobil dayanacağının bütün mərtəbələrində avtoservis xidmətləri göstəriləcək. Yeni avtomobil dayanacağında yüksək səviyyəli parkinq xidmətini həyata keçirmək üçün hərtərəfli şərait yaradılacaq.

**Xəbərlər şöbəsi**

# Gənclərin və məhdud fiziki imkanlı şəxslərin özünüməşğulluğu diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası işaxtaranların, o cümlədən gənclərin və məhdud fiziki imkanlı şəxslərin əmək bazarına inteqrasiyasına, onların sosial rifahının yüksəlməsinə imkanlar yaradıb.

Cari ilin dörd ayı ərzində gənclərin və məhdud fiziki imkanlı şəxslərin məşğulluğu, onların peşə kurslarına cəlb edilməsi, müəssisələrdə müəyyən edilən kvota yerlərinə işə göndərilməsi istiqamətində həyata keçirilən tədbirlər diqqət mərkəzində saxlanılıb, məhdud fiziki imkanlı və hərbi xidmətini başa vuran 61 nəfər müvafiq işlə təmin edilib, 77 nəfər isə peşə kurslarına cəlb olunub.

Dövlət proqramının sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmin edilməsi bəndinin icrasına uyğun olaraq, mayın 26-da Şərur rayonunun Çərçiboğan və Yuxarı Daşarx kənd sakinləri – məhdud fiziki imkanlı Emin Məmmədovun və hərbi xidmətdən tərxis olunan Bəhlul Məmmədovun, Culfa rayonunun Bənəniyar kənd sakini, məhdud fiziki imkanlı İbrahim Həsənovun hər birinə bir baş heyvan (inək balası ilə birlikdə) verilib. Güzəştli şərtlərlə verilən inəklərin dəyəri 30 ay müddətində geri qaytarılacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Növbəti sertifikasiya test imtahanında dörd nəfər ən yüksək nəticəyə nail olub

*Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir. Məlumat üçün bildirək ki, bu prosesə 2011-ci ilin sentyabr ayından başlanılıb və ötən dövr ərzində imtahanlarda iştirak edən 514 həkim, 290 orta tibb işçisi şəffaf şəraitdə test imtahanlarını və müsahibə mərhələsini uğurla başa vuraraq növbəti beş il üçün sertifikat alıblar.*

Növbəti test imtahanında Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının tibb bacıları bilik və bacarıqlarını sınayıblar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri, sertifikasiya şurası sədrinin müavini Süleyman Cəfərov tibb işçilərinin sertifikasiyasını kadr potensialının gücləndirilməsi istiqamətində ən önəmli addımlardan biri kimi dəyərləndirərək deyib ki, hazırda bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, respublikamızda da beş ildən bir imtahan verib sertifikat almayan tibb işçiləri praktik fəaliyyətlə məşğul ola bilməzlər. Sertifikasiya əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılması məqsədilə həyata keçirilir. Bu, həkim və orta tibb işçilərinin nəzəri və təcrübi bilik və bacarıqlarını daha da artırmalarına imkan yaradır. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya muxtar respublikamızda da həkimlərin və orta tibb işçilərinin bilik və peşə bacarıqlarının artırılmasını zəruri edir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilib. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən 79 tibb işçisinə paylanılıb, 3 saat davam edən imtahanın şəffaf, tam obyektiv şəraitdə keçirilməsi təmin edilib.

Dünən test imtahanının nəticələri elan olunub. Səciyyəvi cəhət budur ki, imtahanların şəffaf, tam obyektiv şəraitdə keçirilməsi tibb bacılarının hazırlığına öz müsbət təsirini göstərdiyindən zəruri həddi keçə bilməyənlərin sayı get-gedə azalır. Növbəti imtahanda isə onların əksəriyyəti sınaqdan uğurla çıxıb. Dörd nəfər yüz faizli nəticəyə nail olub, 51 nəfər 90-100 arası bal toplayıb ki, bu da əvvəlki imtahanlara nisbətən ən yüksək nəticədir. Üç nəfər isə zəruri həddi keçə bilməyib.

Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan dünən və bu gün

### Günümüzün problemi

## Gələcəyimiz təhlükədədir

***Ömrümüzün müharibəsiz çağlarında “Uşaqlar gələcəyimizdir” deyib uşaq ili elan edər, uşaq tərbiyə müəssisələrində, məktəb və məktəbdənkənar tərbiyə ocaqlarında sırf uşaqlar üçün nəzərdə tutulan tədbirlər keçirər, maraqlı müsabiqələr təşkil edərdilər. Hər il musiqi, rəssamlıq, bədii qiraət, şahmat, dama və sair üzrə neçə-neçə istedadlı yeniyetmə aşkar edilib üzə çıxarılardı.***

Bu da təbii haldır ki, müharibə gedən ölkədə dinc quruculuq illərinin ab-havası hökm sürə bilməz. Müharibənin öz qanunları var. Lakin acı və dəhşətli müharibə qanunlarından da irəli olan müqəddəs qanunlar var: gələcəyimiz olan uşaqların təlim-tərbiyəsi, sağlamlığı, istedad və bacarığının məhv olmaması qanunları!

Təəssüf hissi ilə demək lazımdır ki, bu gün uşaqlara, yeniyetmə və gənclərə dövlət səviyyəsində qayğı və diqqət unudulub. Artıq 3-4 ildir ki, uşaq tərbiyə müəssisələrində balacaların istirahət və tərbiyəsi üçün lazımi şərait yoxdur. İstilik və işığın olmaması üzündən bağçalar tez-tez bağlanır. Valideynlər yüksəkkalorili ərzağın çatışmaması üzündən övladlarını bağçaya vermirlər. Şəhər istilik sisteminin işləməməsi, elektrik enerjisinin fasilələrlə verilməsi ümumtəhsil müəssisələrində, orta ixtisas məktəblərində, texnikum və institutlarda dərslərin aylarla dayandırılmasına səbəb olur. Tibbi ləvazimatların, dərman preparatlarının çatışmamasına görə uşaqlar arasında lazımi peyvəndlər aparılmır. Bu da, öz növbəsində, onların infeksion xəstəliklərə yoluxmasına səbəb olur.

Aqillərdən biri deyib ki, bir millətin məhvi üçün onun müəllim və həkiminin savadsız olması yetər. Doğrudan da, insanın əqli sağlamlığı müəllimdən, fiziki sağlamlığı isə, ilk növbədə, həkimdən asılıdır. Əgər məktəblərdə dərslər proqram səviyyəsində olmursa, tibb ocaqlarında lazımi profilaktik tədbirlər keçirilmirsə, uşaqlarımızı indidən gələcək təhlükə ilə üz-üzə qoyuruq.

Muxtar respublikanın tanınmış kardioloqları son vaxtlar onlara müraciət edən valideynlərin təşviş və narahatçılığının əsl səbəbini vaxtında uşaqlar arasında tibbi yoxlanışın aparılmamasında görür.

Həkimlər haqlı olaraq bildirirlər ki, uşaqların sağlamlığı nəzarətdən kənarda qalıb. Belə ki, əvvəllər xüsusi həkim briqadaları məktəblərdə olur, uşaqları kütləvi surətdə hərtərəfli müayinə edir, rentgen aparatından keçirirdilər. Zəif və xəstəhal uşaqları müalicəyə götürür, uşaq sanatoriyalarında istirahətə göndərirdilər.

Aydındır, bu gün respublikada müharibədir. Müharibə kənd və şəhərlərimizi viranəyə çevirdiyi kimi, gələcəyimizin sütunlarını da laxladır. Ən acınacaqlı hal odur ki, uşaqlar təhsil almaq, oxumaq əvəzinə “biznes” azarına tutulublar. Əvvəllər uşaq şıltaqlığı üzündən və yaxud ailənin maddi vəziyyətinin çətinliyi ucbatından şirni, xoruz və yaxud da tumsatan uşaqlara da, onların valideynlərinə də qəribə ikrah hissi ilə baxır, bunu uşağın mənəviyyatını korlayan alverin başlanğıcı kimi qiymətləndirirdik. Doğrusu, əvvəllər yaşlılar da “alverçi” sözünü üstünə götürməyə, bir növ, xəcalət çəkirdilər. İndi isə leksikonumuza “alverçi” sözünü əvəz edən daha mədəni “biznesmen” sözü daxil olub. İndi çoxları 10-15 siqaret, 5-10 qutu konfeti küçədə, yaşadığı evin qarşısında qabağına düzüb bizneslə məşğul olması ilə fəxr edir. Bax bizcə, bu da zamanın, dövranın ən böyük faciəsidir.

Müharibə gedən ölkədə hamı – böyük də, uşaq da alverə qurşanıb. Məktəblərdə dərslərin olmaması üzündən boş qalan uşaqlar mütaliə etmək, keçirilmiş dərsləri təkrarlamaq əvəzinə alverlə məşğul olurlar. Çox təəssüf ki, valideynlər də bu hala göz yumur, çox vaxt isə özləri şərait yaradırlar. Kiçikyaşlı övladının evə qazanc gətirdiyi 4-5 yüz manatın arxasında hansı gələcək faciələrin durduğunu isə hələlik dərk etmirlər. Əvvəla, bu gün xırda alverə qurşanıb yüngül qazancın dadını anlayan məktəblinin sabah dərslər başlayanda da fikri elm, bilik yanında deyil, qazanc yanında olacaq. O, dərsdən yayınıb “öz ticarət postunda” duracaqdır. İkinci bir tərəfdən isə qışın soyuq günlərində qarın, buzun üzərində dayanıb alver edən yeniyetmə elə indidən hər cür fəsad tapıb gələcək sağlamlığı üçün təhlükə yaradır.

Ağbirçək pedaqoq Havazər müəllimə ürəkağrısı ilə bildirir ki, yolboyu xırda alver edən şagirdlər müəllimlərdən belə utanıb çəkinmirlər. Onlar üfal etmədən sırtıqcasına “müəllim, mən ucuz verirəm, məndən al”, – deyib dil tökürlər. Doğrudan da, gələcəyimiz olan uşaqlar ciddi həyati təhlükə qarşısındadırlar.

Əvvəllər ali məktəblərə girə bilməyən məzunlar fabrik və zavodlara, müəyyən təşkilatlara müraciət edib müvafiq iş soraqlayırdılar. İndi isə onlar heç oxumaq, işləmək barədə düşünmək belə istəmirlər. “Oxuyub nə alacağam”, “İndi diploma nə verirlər” kimi mənasız fikirlərlə, qaz vurub qazan doldurmaq ehtirası ilə hər cür fırıldağa qol qoyan bəzi yeniyetmələr öz qazancları ilə bahalı siqaret çəkir, xarici içkilər içir, həyatımıza, milli əxlaqımıza uyuşmayan videofilmlərə baxırlar. Əvvəllər valideynin uşağa verdiyi 50 qəpik və ya 1 manata o, qələm və yaxud kitab alanda sevinirdisə, indi öz qazancı hesabına xarici siqaret çəkməyi ilə öyünür, cibindəki yüzlüklərlə yaşıdlarını da alverə şirnikləndirir. Uşaqların kiçik yaşlarında müəyyən sənətlərə yiyələnməsi bütün əsrlərdə mövcud olub. Çünki uşaq yaddaşı, uşaq əllərinin qurub-yaratmaq bacarığı böyüklərə görə çox həssas olur. Məhz bu baxımdan da onları balaca yaşlarından sənətkar yanına qoyurdular. İndi isə nə sənət yada düşür, nə də ki, peşə.

Həmkarlarımdan birinin dediyi kimi, 20-25 ildən sonra nə bu xalqın istedadlı, bacarıqlı həkimi olacaq, nə də ki, müəllimi. Bugünkü nəsil ömrünü başa vurduqdan sonra onları əvəz edə biləcək kadrlar olmayacaq. Bəlkə də, çoxları bizim bu fikrimizlə razılaşmayacaqdır. Lakin acı da olsa, bu, bir həqiqətdir. Bugünkü təhsili göz önünə gətirib sabahı düşünən hər bir kəs aydın dərk edər ki, ali məktəblərdə 2-3 ay çəkən semestrdə gələcəyin mütəxəssisləri elmin sirlərinə nə yiyələnirlər? Dərsliklərin çatışmaması, müəllim və tələbələrin etinasızlığı, demək olar ki, bütün ali məktəblər üçün xarakterik bir hala çevrilmişdir.

Bu gün səhiyyə ocaqlarına, maarif müəssisələrinə üz tutan valideynlər çox vaxt ordan narazı qayıdırlar. Ailəsini dolandırmaq üçün həkim, müəllim belə, peşəsini buraxıb gəlirli işlərlə məşğul olur. Bir az dərinə getsək, bəlkə də, belələrini qınamaq deyil, onlara haqq da qazandırmaq olar. Axı müəllim atası bizneslə məşğul olan şagirdindən qat-qat aşağı səviyyədə yaşayır. Özünə yeni kostyum almağa imkanı olmayan həkim başqa çıxış yolu görmür. Bu da, öz növbəsində, yenə bizə, daha doğrusu, xalqa zərər gətirir. Uşaqlarımızın taleyinə mənfi təsir edir.

Bu yaxınlarda muxtar respublika Doğum Mərkəzinin həkimlərindən birinin mətbuatda dərc edilmiş kiçik bir müsahibəsi, sözün əsl mənasında, əsrin son illərinin acı faciələrindən xəbər verir. Həkim ağır da olsa, etiraf edir ki, hamilə qadınlar və yeni doğulan uşaqlar arasında ölüm halları xeyli artıb. Buna səbəb müasir tibb avadanlıqlarının olmaması, dərmanların tapılmaması, mövcud şəraitdə hər an, hər dəqiqə keçirilən streslərdir.

Gələcəyimiz təhlükədədir! İndi bu çağırış, sözün əsl mənasında, əks-səda verməli, aid orqanlar – səhiyyə təşkilatları, maarif müəssisələri, milis bu təhlükənin qarşısını almaq üçün əlbir işləyib lazımi tədbirlər görməlidirlər.

Elə buradaca haqlı bir sual ortaya çıxır: “Görəsən, milis şöbələri nəzdində fəaliyyət göstərən həddi-büluğa çatmayanlarla iş müfəttişliyi nə ilə məşğuldur?” Yeniyetmə və məktəblilərin narkotik maddə belə alıb satmasını adi vətəndaşlar eşidib bildikləri halda, görəsən, onlar eşitmirlərmi? “Ağ ölüm”ün özünəməxsus əxlaqi ənənələri və milli qanunları olan qədim Naxçıvanda da ayaq açması dəhşətli hal deyilmi?

Bu gün qarşıda çox mühüm bir vəzifə dayanır. Hamı əl-ələ verib gələcəyimiz olan uşaqların sabahı barədə dərindən-dərinə düşünməli, günün ən vacib problemi kimi onların nurlu sabahı üçün mübarizəyə qalxmalıdır.

**“Şərq qapısı” qəzeti**
***30 mart 1994-cü il***

## Gələcəyimiz etibarlı əllərdədir

***Yuxarıda verilən “Gələcəyimiz təhlükədədir” adlı məqaləni oxuyanda düz 20 il bundan əvvəlki dövrü xatırlamağa çalışıram. Mənimlə yaşıd olan yüzlərlə uşağın o dövrdə yaşadığı həmin çətinliklərin doğurduğu hal-vəziyyət keçir gözlərimin önündən. Əslində, bilmirəm hansından danışım.***

...Naxçıvan şəhərində fəaliyyət göstərən internat məktəbinin birinci sinfinə qədəm qoydum. Məktəbimiz olduqca böyük idi. Ancaq şəraiti o qədər də yaxşı deyildi. Qış günlərində sinifləri neft sobaları ilə qızdırmağa çalışsalar da, yenə də soyuq idi. Neft iyindən dərsdə oturmaq da bir tərəfdən biz uşaqlar üçün əzaba çevrilirdi. Anamın hər gün əziyyətlə yuyub ütülədiyi yeganə təzə paltarım evə gedənə qədər qapqara olurdu. Hələ bunlar bir tərəfə. Evimizlə məktəb arasında xeyli yol var idi. Səhərlər yalnız bir avtobus işləyirdi. Bu avtobusa çata bilmədinsə, həmin gün məktəbə piyada getməli idin. İşıqların tez-tez sönən vaxtları olduğu üçün trolleybusdan da normal istifadə etmək olmurdu. Gündüz saat 5-dən sonra isə nəqliyyat vasitəsi tapmaq qeyri-mümkün idi. Səhərlər məktəbə gəlməyə çarə tapsam da, dərsdən sonra evə piyada gedirdim. Dörd il – ibtidai sinfi bitirənədək məktəbdən evə bu yolları piyada getdim. Artıq yolları yaxşı tanıyırdım. Evə gedəndə adətim idi: mütləq yolumu indiki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkından salardım. Köhnədən qalmış uşaq əyləncə qurğularına həsrətlə baxardım. Səhərlər bu ərazidən bazar kimi istifadə olunurdu. Yöndəmsiz dükanlar hələ də xatirimdədir. Tozlu və kələ-kötür yollara ayaqqabı da tab gətirmirdi. Yollar o qədər palçıq olurdu ki, yağışlı günlərdə ayaqlarım islanmasın deyə, anam ayaqqabımın üstündən sellafon salardı. O zamankı çətin günlərin xatirələrini yazmağa bir məqalə yetməz. Bizim uşaqlığımız məhz o illərə təsadüf elədi. Bəli, o zamanlar uşaqlara göstərilən diqqət və qayğıdan danışmaq belə olmazdı. Məhz ona görə o illərdə “Gələcəyimiz təhlükə altındadır” kimi yazılar qəzet səhifələrində yer alırdı.

Bəs bu gün? Həmkarımın o vaxt qələmə aldığı vəziyyətlə bugünkü arasında müqayisəolunmaz dərəcədə, necə deyərlər, yerlə göy arasında fərq var. Ulu öndərimiz Heydər Əliyevin ***“Mən həyatımın, bu günümün, gələcəyimin də xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm”*** kəlamı əldə rəhbər tutularaq sevincimiz, xoşbəxtliyimiz, gələcəyimiz, varlığımız və ən qiymətli sərvətimiz olan uşaqların hərtərəfli böyümələri üçün muxtar respublikada bütün imkanlar yaradılıb. Çünki onlar bizim yaşam qaynağımızdır. Uşaqsız cəmiyyətin, dövlətin gələcəyi ola bilməz. Dövlətimizin sabahı bugünkü uşaqlarımızın əlində olacaq. Odur ki, bu gün onlar həm dövlətimiz, həm də cəmiyyətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“İnsan həyatında uşaqlıq, gənclik dövründən gözəl dövr yoxdur. Bu dövrdən maksimum səmərəli istifadə edilməlidir. Uşaqlıq və gənclik dövründə boş və mənasız keçirilən hər gün sonradan böyük itkilərə gətirib çıxara bilər. Bütün imkanlardan səmərəli istifadə olunmalıdır ki, gənc nəslimiz yaxşı bilik, təhsil alsın, elmi, həyatın bütün sahələrində olan təcrübəni mənimsəsin, həyatda, cəmiyyətdə həm özü, həm ölkə, həm də xalq üçün faydalı olsun”.*** Gələcəyimiz olan uşaqlara böyük nikbinliklə baxan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “dövlətə, millətə, ənənələrə sadiq vətəndaş” fikrini rəhbər tutaraq böyük bir xeyirxahlıq missiyasını həyata keçirir.

Son 20 ildə muxtar respublikada uşaqlarla bağlı əsas iki istiqamətdə tədbirlər həyata keçirilib: uşaqların təhsili və sağlamlığı. Statistikaya müraciət edək. Son 18 ildə muxtar respublikada 200-dən artıq ümumtəhsil məktəbi, 19 məktəbəqədər təhsil müəssisəsi, 20-dən çox uşaq musiqi məktəbi, 18 məktəbdənkənar təhsil müəssisəsi, 43 idman obyekti tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin artırılması məqsədilə 600-ə yaxın elektron lövhə quraşdırılıb, hər 12 şagird 1 kompüter dəsti ilə təmin olunub. Qürurverici rəqəmlər deyilmi? Bunun arxasında hansı ali məqsədin dayandığını görmək heç də çətin deyil. Bu gün uşaqlar 21 il bundan öncə dərc olunan yazıda ürəkağrısı ilə qələmə alındığı kimi küçələrdə “alverçiliklə” məşğul deyil. İndi uşaqların yeri müasir məktəb binaları, uşaq bağçaları, şahmat mərkəzləri və digər məktəbdənkənar müəssisələr, idman kompleksləri, üzgüçülük mərkəzləridir. Bütün bunlara görədir ki, muxtar respublikada pis vərdişlərə meyilli, “ağ ölüm”ün qurbanı olan uşaq yoxdur.

Sağlam uşaq olmadan sağlam cəmiyyət ola bilməz. Həmin yazıda səhiyyə müəssisələrindəki şəraitsizlik ucbatından uşaqların peyvəndə cəlb edilmədiyi, hamilə qadınlar və yeni doğulan uşaqlar arasında ölüm hallarının xeyli artdığı vurğulanır, buna səbəb kimi müasir tibbi avadanlıqların olmaması, dərmanların tapılmaması göstərilir. Müəllif uşaqlar arasında tibbi yoxlanışın aparılmamasından bəhs edir, bunun böyük faciələrə səbəb olacağını bildirir. Bu gün ucqar dağ kəndlərimizdə belə, tibb ocaqları üçün yeni binaların tikilməsi və ya əsaslı təmir olunması, tibb müəssisələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi, səhiyyə ocaqlarında uşaq şöbələrinin yaradılması, Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının müasir tələblər səviyyəsində yenidən qurulması, Doğum Mərkəzi üçün yeni binanın inşası, həmin xəstəxanaların müasir tibbi avadanlıqlarla təchiz edilməsi ülvi bir məqsədə xidmət edir: analarımızın və uşaqlarımızın sağlamlığını qorumaq. Bu səbəbdəndir ki, son illər uşaq və ana ölümü minimum həddə endirilib. Jurnalist həmkarımızın o vaxt arzuladığı kimi, indi həkim briqadaları tez-tez müxtəlif yaşayış məntəqələrinə, təhsil müəssisələrinə gedir, uşaqları tibbi yoxlanışdan keçirirlər. Xəstəlik aşkar olunan uşaqlar dərhal stasionar müalicəyə cəlb edilir, onların sağlamlıqlarına qovuşmaları üçün lazımi tədbirlər görülür. Bütün bunlar sağlam gələcəyimizə xidmət edir.

“Gələcəyimiz təhlükədədir” məqaləsində istedadlı uşaqların diqqətdən kənarda qaldığı, uşaqların asudə









*Ardı 4-cü səhifədə*



vaxtının səmərəli təşkil edilmədiyi, nəzarətsiz qalan uşaqların siqaretə meyilli olduğu, spirtli içkilər qəbul etdiyi ürəkağrısı ilə qələmə alınıb.

İstedadlı uşaqların üzə çıxarılması, uşaqların asudə vaxtının səmərəli təşkili, onların pis vərdişlərdən çəkindirilməsi istiqamətində də çox mühüm işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasında xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" bu kateqoriyadan olan uşaqların (gənclərin) aşkara çıxarılması və onların sonrakı inkişafı üçün ardıcıl tədbirlərin görülməsində mühüm dövlət sənədi kimi böyük əhəmiyyət kəsb edib. Qeyd olunanlardan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli, 2010-cu il 19 aprel tarixli sərəncamlarına müvafiq olaraq, Naxçıvan Dövlət Uşaq Teatrı və Uşaq Filarmoniyasının yaradılmasında məqsəd istedadlı yeni nəsil yetişdirməkdən, onların potensialından müstəqil dövlət quruculuğunda geniş şəkildə istifadə etməkdən, istedadlı uşaq, yeniyetmə və gəncləri üzə çıxarmaqdan, onlara göstərilən dövlət qayğısının əsas istiqamətlərini müəyyənləşdirməkdən, regionda mənəvi mühitin formalaşdırılmasından ibarətdir. M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının fəaliyyətinin gücləndirilməsi, musiqi məktəbləri, məktəbdənkənar müəssisələr üçün binaların tikilməsi, onların müasir avadanlıqlarla təchiz edilərək xalqın böyük sərvəti olan uşaqların istifadəsinə verilməsi təqdirəlayiq hal kimi valideynlər tərəfindən də sevinclə qarşılanır.

Sadalanan tədbirlər sırasında hər il muxtar respublikada Uşaqları Beynəlxalq Müdafiə Gününün geniş şəkildə qeyd olunmasını da xüsusi vurğulamalıyıq. 2009-cu ildə, ölkəmizdə elan olunan "Uşaq ili"ndə həyata keçirilən tədbirlərin miqyasına görə muxtar respublikanın öndə getməsi regionumuzda uşaqların necə diqqət və qayğı ilə əhatə olunduğunun əyani göstəricisidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq "Gənc istedadların "Qızıl kitabı"nın yaradılması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

Uşaqların vətənpərvərlik ruhunda tərbiyə edilməsində folklor nümunələri, kiçikhəcmli şeir və hekayələr böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin xətti ilə "Uşaqlar və Günəş" almanaxı, "Təmsillər", "Şeir və hekayələr", "Poema və pyeslər" adlı uşaq kitabları hazırlanaraq nəfis tərtibatda çap edilib.



Muxtar respublikada məhdud fiziki imkanlı uşaqlar da hərtərəfli qayğı ilə əhatə olunublar. Bu kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyası üçün lazımi şərait yaradılıb, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilib. Uşaq Bərpa Mərkəzinin də fəaliyyəti gücləndirilib. Demək olar ki, muxtar respublika uşaqların reabilitasiyası üçün hər cür imkanlara malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" isə bu sahədə yeni istiqamətlər müəyyənləşdirib. Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarının təmin olunması məqsədilə qəbul edilən bu proqrama əsasən bir sıra mühüm tədbirlər həyata keçirilib. Ən mühüm tədbirlərdən biri isə ötən il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsidir.

Xüsusi olaraq qeyd edilməlidir ki, uşaqlar dövlət uşaq müəssisələrinə 3 əsas səbəbdən düşürlər: yoxsulluq, ailənin dağılması və əlillik.

Muxtar respublikada iqtisadiyyatın sürətli inkişafının, sosial sahələrə diqqətin artırılmasının, yeni iş yerlərinin açılmasının, o cümlədən hər bir ailənin sosial vəziyyətinin yaxşılaşmasının, aztəminatlı ailələrə göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasının nəticəsidir ki, dövlət uşaq müəssisələrində dövlət himayəsində təlim-tərbiyə alan uşaqların sayı çox azdır. Bu da uşaqların ailə mühitində inkişafının təmin edilməsinə gətirib çıxarıb.

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına da daim diqqət və qayğı göstərilir. Uşaqlar arasında idmanın kütləviliyinin artırılması, gənc nəslin sağlam böyüməsi üçün bir sıra tədbirlər görülüb. Belə ki, idman kompleksləri, mini-futbol meydançaları, stadionlar, idman məktəbləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Nəticədə, bu gün uşaq və yeniyetmələr beynəlxalq idman yarışlarında uğurla çıxış edərək muxtar respublikamıza medallarla qayıdırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq, uşaq müəssisələrində uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının aradan qaldırılması məqsədilə ardıcıl tədbirlər görülüb, uşaqların elektron məlumat bankının yaradılmasına başlanılıb.



Muxtar respublikada son 20 ilə yaxındır ki, uşaqlara göstərilən qayğı öz bəhrələrini verir. Bu illər ərzində qayğı və diqqətlə əhatə olunan o uşaqlar indi 19-20 yaşında gənclərdir. Onlar muxtar respublikamızı həm ölkəmizdə, həm də xarici dövlətlərdə layiqincə təmsil edirlər. Bir faktı qeyd edim: 2014-cü ildə keçirilən ali məktəblərə qəbul imtahanlarında 347 abituriyent 500-700 intervalında yüksək nəticə göstərib. Müqayisə üçün qeyd etmək olar ki, 1995-1996-cı tədris ilində bu göstərici 5 nəfər əldə edib.

Əvvəldə də qeyd etdiyimiz kimi, Naxçıvanda uşaqların asudə vaxtının səmərəli təşkili də diqqətdən kənarda qalmayıb. Müasir musiqi məktəbləri, məktəbdənkənar müəssisələr, uşaq bağçaları, kitabxanalar yaradılmaqla yanaşı, Naxçıvan şəhəri və rayon mərkəzlərindəki yaşayış binalarının önündə uşaq-əyləncə qurğuları istifadəyə verilib. Son illər Naxçıvan şəhərində müasir uşaq-əyləncə qurğularının, attraksionların quraşdırıldığı Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, əyləncə adası uşaqların hər gün üz tutduğu ünvanlardandır. Ötən əsrin 90-cı illərinin əvvəllərində bizim xarici televiziya kanallarında həsrətlə baxdığımız uşaq əyləncə mərkəzlərindən indi daha yaxşısı var Naxçıvanda. Biz uşaqlığımızı uşaq kimi yaşaya bilmədik. Amma bizim arzuladıqlarımıza övladlarımız çatıb. Müasir Naxçıvanın uşaqları qüdrətli dövlətimiz, bu günümüzün və gələcəyimizin qurucuları sayəsində uşaqlıqlarını uşaq kimi xoşbəxt yaşayırlar. Bu günün uşaqları xarici televiziya kanallarında göstərilən məktəblərə, bağçalara, uşaq əyləncə mərkəzlərinə həsrətlə baxmırlar. Bizim məktəbimiz, bağçamız, əyləncə mərkəzimiz daha gözəldir deyib sevinirlər.





**P.S. Hörmətli oxucular! Kiçik bir qəzet yazısında muxtar respublikada uşaqların təhsili, sağlamlığı və tərbiyəsi ilə bağlı həyata keçirilən tədbirləri tam təfsilatı ilə qələmə almaq imkan xaricindədir. Ancaq görülən işlər göz qabağındadır. Yəni elə şərait yaradılıb ki, bu gün muxtar respublikada dərsdən yayınan, qayğıdan kənarda qalan, pis vərdişlərə qurşanan uşağa rast gəlmək mümkün deyil. Bütün bunlar gələcəyimizə böyük ümidlərlə baxmağa imkan verir. Uşaqların sağlamlığı, təhsili, tərbiyəsi istiqamətində görülən işlər onu deməyə əsas verir ki, gələcəyimiz etibarlı əllərdədir.**

✍ Sara ƏZİMOVA

## Respublika Günü münasibətilə keçirilən konsertlər davam etdirilir

***28 May – Respublika Günü münasibətilə muxtar respublikada keçirilən silsilə tədbirlər sırasında regionun uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri kollektivlərinin ayrı-ayrı ünvanlarda konsertlərinin təşkili də diqqət çəkir.***

Dünən təşkil olunan muxtar respublikanın 4 uşaq musiqi məktəbi kollektivlərinin konsertləri də tamaşaçılarda xoş ovqat yaradıb. Ordubad Şəhər Uşaq musiqi məktəbinin musiqi kollektivlərinin Yuxarı Əylis Kənd Mərkəzində konserti olub. Məktəbin müəllim və şagirdlərdən ibarət nağaraçalanlar və qarmonçalanlar ansamblarının, xalq çalğı alətləri üçlüyünün, solo ifaçıların, saz müəllimi Məmməd Baxşıyevin tamaşaçılara təqdim etdikləri musiqi nömrələri alqışlarla qarşılanıb.

Həmin gün Babək rayonunun Zeynəddin Kənd Uşaq musiqi məktəbinin Zeynəddin kənd mədəniyyət evində, Şərur rayonunun Çərçiboğan Kənd Uşaq musiqi məktəbinin Dərəkənd Mərkəzində, Şahbuz rayonunun Kolanı Kənd Uşaq musiqi məktəbinin Biçənək Kənd Mərkəzində konsertləri təşkil olunub. Konsertlərdə ölkəmizə, müstəqilliyimizə həsr olunmuş mahnılar səsləndirilib. Rəqs kollektivlərinin ifasında milli rəqslərimiz oynanılıb.



## Asfalt üzərində rəsm müsabiqəsi



1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ərəfəsində sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin qarşısında asfalt üzərində rəsm müsabiqəsi keçirilib.

Müsabiqədə sağlamlıq imkanları məhdud 15 uşaq iştirak edib. Müsabiqə iştirakçıları tabaşirlə rəsmlər çəkməklə öz bacarıq və qabiliyyətlərini nümayiş etdiriblər.

Münsiflər heyətinin rəyinə əsasən, çəkdikləri rəsmlərə görə Fatimə Babayeva birinci, Zeynəb Əhmədova ikinci, Gülay Zeynalova isə üçüncü yerlərə layiq görülüblər.

Müsabiqənin qaliblərinə mükafatlar, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim olunub.

**Xəbərlər şöbəsi**

*Ötən həftə Bakı şəhərindəki "Sərhədçi" İdman Olimpiya Mərkəzində sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələrin Azərbaycan çempionatı keçirilib.*

## Güləşçilərimiz Azərbaycan çempionatından medallarla qayıdıblar

Ölkə birinciliyində Naxçıvan güləşçiləri də qüvvələrini sınayıblar. Çempionatda iştirak edən 10 pəhləvanımız uğurlu çıxışları ilə diqqəti cəlb edib.

76 kiloqram çəki dərəcəsində yunan-Roma güləşi üzrə mübarizə aparan Rüfət Güləliyev həlledici qarşılaşmaya kimi bütün rəqiblərini məğlub edib. Final qarşılaşmasında pəhləvanımız Mingəçevir şəhərinin təmsilçisi Cavanşir Qasımovla qarşılaşıb. Üstünlüyü əldən verməyən güləşçimiz bu qarşılaşmada da qalib gələrək Azərbaycan çempionu adını qazanıb.

50 kiloqram çəki dərəcəsində mübarizə aparan digər yunan-Roma güləşçimiz Elvin Kərimov finala kimi irəliləyib. Lakin həlledici qarşılaşmada "ROİL" idman klubunun güləşçisi Həsən Məmmədliyə məğlub olan pəhləvanımız Azərbaycan çempionatında gümüş medala sahib çıxıb.

58 kiloqram çəki dərəcəsində mübarizə aparan Afin Mustafayev isə ölkə birinciliyini beşinci yerdə başa vurub.

Sonda qalib idmançılarımıza diplom və medallar təqdim olunub. Güləşçilərimiz Azərbaycan yığma komandasının heyətinə daxil ediliblər.

✍ Ceyhun MƏMMƏDOV

***İtmişdir***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 10, ev 14-də yaşamış Rəhimov Əbülfəz Hüseyn oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 07.06.2012-ci il tarixdə verilmiş 0025946 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 418